Türkiyə Təhsil Nazirliyi, Türkiyə İş Birliyi və Kalkınma İdarəsi (TİKA), Azərbaycan Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə keçirilən bu seminar texniki-peşə təhsili müəssisələrində işləyən mühəndis-pedaqoji heyət üçün nəzərdə tutulub.

Seminarın açılış mərasimində Türkiyə Təhsil Nazirliyinin Peşə Təhsili Departamentinin müdiri Yucel Yuksel və Azərbaycan Respublikasının Türkiyə Respublikasında Təhsil məsələləri üzrə nümayəndəliyinin İzmir bölməsinin nümayəndəsi Cavid Əliyev, eləcə də digər rəsmi şəxslər iştirak etmişdir.

Qeyd edək ki, seminarda Təhsil Nazirliyinin və ölkəmizin müxtəlif peşə təhsili müəssisələrinin 10 nəfərlik nümayəndə heyəti iştirak edir.

TİKA və Təhsil Nazirliyi arasında olan razılaşmaya əsasən “Azərbaycan Respublikasında Texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)”nın uğurla həyata keçirilməsi məqsədilə gələcəkdə müxtəlif istiqamətlər üzrə birgə tədbirlərin və təlim səfərlərinin təşkil edilməsi də nəzərdə tutulmuşdur.

Seminar dekabrın 12-dək davam edəcək.